## Torpaq çərşənbəsi qeyd olundu

Fevralın 14-də ilaxır çərşənbə-torpaq çərşənbəsi qeyd olundu. İnanclara görə torpaq çərşənbəsində su, yel, od torpağın yanına gəlir ona oyanmaq vaxtının çatdığını bildirirlər. Torpaq oyanır, ağaclar su çəkməyə başlayır, yer isinir. Bunu görən kənd adamı kütləvi şəkildə ana torpaqda çalışmağa başlayır. Bir sıra bitkilərin əkini də məhz bu gündən başlayır. Çünki torpaq artıq isinməyə başlamışdır. Toxumun yerdə çürümək qorxucu yoxdur. İnanclara görə torpaq çərşənbəsindən sonra ağaclarda su hərəkətə başladığına görə onların bu gündən sonra kəsilməsi günah sayılır. Dünya görmüş müdriklər deyərmiş ki, torpaq çərşənbəsindən sonra kəsilən ağacdan ev tikmək olmaz.

## «Qəbələ-Könül dünyamız» almanaxının təqdimatı mərasimi olub

Qəbələ yazarlarının şeir və hekayələrindən nümunələrin toplandığı «Qəbələ—Könül dünyamız» adlı kitabın təqdimat mərasimi keçirilmişdir. Kitab almanax şəklində çap olunmuşdur. Şair Tacəddin Şahdağlının ön sözü ilə başlayan almanaxda rayonda hazırda yaşayan və dünyasını dəyişmiş 60 nəfərə qədər yazar haqqında qısa bioqrafik məlumat və bədii yazılarından nümunələr verilmişdir.



Təqdimat mərasimini mədəniyyət işçisi, maraqlı bədii yazılarla mətbuat səhifələrində çıxışlar edən Nargilə Qafarova açmışdır. O, almanaxın işıq üzü görməsi münasibətilə yazarları təbrik etmiş, onların adından almanaxda gedən yazıların toplanması, tərtib edilməsi və çap olunmasında böyük zəhməti olan AYB-nin və AJB-nin üzvü Emin Baratoğluna minnətdarlığını bildirmişdir. Emin Baratoğlu eyni zamanda kitabın redaktorudur.

Mərasimdə Emin Baratoğlu kitabın ərsəyə gəlməsi üçün gördüyü işlərdən danışmış, burada bədii yazısı olan hər kəsi öz növbəsində təbrik etmişdir.

Qeyd etdiyimiz kimi kitaba ön söz yazan tanınmış şair Tacəddin Şahdağlı bir neçə cümlə ilə Qəbələnin təbiəti, tarixi, görkəmli simaları haqqında oxucuları məlumatlandırmaqla yanaşı almanax haqqında fikirlərini də bildirmişdir. Tacəddin Şahdağlının ön sözdən əvvəl dərc olunmuş bir neçə misrası əsil söz barədə gözəl arzudur:

*Mən elə bilirdim şair qocalmır,*
*Ömrün zirvəsinə o, heç ucalmır.*
*Sən demə arzular şerə döndükcə,*
*Sözün məhvərində o hey çöndükcə,*
*Şair də qocalır, söz də qocalır.*
*Onun da üzünü qırışlar alır,*
*Lakin qoy bu fikir bizi almasın,*
*Şair qocalsa da, söz qocalmasın!*

Təqdimat mərasimində almanaxda bədii yazıları dərc olunan yazarlar da çıxış etmiş, bu xeyirxah işdə zəhməti olanlara təşəkkürlərini bildirmişlər.

Ümidvarıq ki, almanaxda yer almış Vətənə, məhəbbətə və s. həsr olunmuş bədii yazılar oxucular tərəfindən maraqla qarşılanacaqdır.

✍ *Eldar QULİYEV,*
*AJB-nin üzvü.*

## Reyhan haqqında nə bilirik

***Qədim zamanlarda Şərgdə reyhan həm yeməklərin bişirilməsi zamanı, həm də tibbdə geniş istifadə olunurdu. Reyhanın qidalı və müalicəvi xüsusiyyətləri çox yüksək qiymətləndirilirdi. Burada reyhanı hətta "padşahlar otu" adlandırırdılar və deyirdilər ki, "hər gün reyhan yeyən insan qocalmaz". Yeri gəlmişkən, reyhan həqiqətən orqanizmdə qocalma prosesləri ləngidən antioksidant maddələrlə zəngindir.***

Reyhan unikal kimyəvi tərkibə malikdir. Reyhanda efir yağları, vitaminlər (K, P, A, B2), fitonsidlər, minerallar (dəmir, mis, marqans, kalium, maqnezium) və s. dəyərli maddələr var.

Reyhan insanın mədə-bağırsaq sisteminə çox müsbət təsir edir - həzm prosesləri yaxşılaşdırır və sürətləndirir, bağırsaq köpünü aradan qaldırır, bəzi qidalardan sonra qarında əmələ gələn diskomfort və ağrıları azaldır. Reyhan xüsusilə yağların parçalanmasını asanlaşdırır və sürətləndirir. Məhz bu səbəbdən Şərqdə ta qədimdən yağlı, çətin həzm olunan qidalara tez-tez reyhan əlavə edirlər.

Reyhan əla spazmolitikdir. Spazmla bağlı olan baş və qarın ağrılarını azaldır. Bunun üçün təzə reyhanı yemək və ya reyhan dəmləməsini içmək olar.



Reyhan həm də antiseptik—iltihab əleyhinə təsirə malikdir. Nəfəs yolları xəstəlikləri zamanı reyhan dəmləməsi çox yaxşı təsir edir, bəlğəmi durulaşdırır və onun çıxmasını asanlaşdırır. Bu məqsədlə 10 reyhan yarpağı 1 stəkan qaynar suda 20 dəqiqə ərzində dəmlənilir və gün ərzində 3 dəfə 1/3 stəkan olmaqla ılıq şəkildə içilir.

Ağız boşluğu iltihabları, stomatit zamanı reyhan dəmləməsi çox yaxşı müalicəvi təsir edir, iltihabı azaldır.

Reyhan sinir sisteminə də olduqca müsbət təsir edir. Hətta təzə reyhanın iyi insanı sakitləşdirir, əhval-ruhiyyəsini yaxşılaşdırır. Tez-tez stress vəziyyətlərinə düşən, nevroz, depressiyadan əziyyət çəkən insanlar reyhanı öz qidalanmasına daim daxil etməlidir, reyhan dəmləməsi içməlidir.

Reyhan ürək-damar sistemimiz üçün də çox faydalıdır. Onun tərkibində olan efir yağları ürəyin fəaliyyətinə çox müsbət təsir göstərir, arterial təzyiqinin tənzimlənməsinə kömək edir, damarlar daha sağlam olur, qanın tərkibini yaxşılaşdırır.

Reyhan immun sisteminin möhkəmlənməsinə də çox müsbət təsir edir. İmmun sisteminin fəaliyyətini yaxşılaşdırmaq üçün 5 yarpaq reyhan + bıcağın ucunda darçın və zəncəfil 1 fincan qaynar suda dəmlənilir. Bir az soyudulur, 1 çay qaşığı bal əlavə olunur və çay kimi içilir. Belə çay həm də insanı daha gümrah edir, iş qabiliyyətini artırır.

Eləcə də reyhan podaqra zamanı çox faydalıdır. Orqanizmdə sidik turşusunun səviyyəsini azaldır və xəstənin vəziyyətini yaxşılaşdırır.

Həkimlərin fikirinə görə, reyhan həmçinin xərçəng əleyhinə təsirə də malikdir.

## Fövqəladə Hallar Nazirliyi Novruz bayramı ilə əlaqədar əhaliyə müraciət edib

Fövqəladə Hallar Nazirliyi (FHN) Novruz bayramı ilə əlaqədar yanğın təhlükəsizliyinə dair əhaliyə müraciət edib.

FHN-in mətbuat xidmətindən bildiriblər ki, müraciətdə hər birimiz üçün əziz olan Novruz bayramı ilə əlaqədar keçirilən müxtəlif mərasimlərdə yanğın təhlükəsi ilə üzləşməmək üçün bir sıra təhlükəsizlik qaydalarını bilməyin vacibliyi qeyd olunub.

"Bayram tonqalının ətrafına yığışan azyaşlılar mütləq böyüklərin nəzarətində olmalıdır. Tonqal elektrik naqili, ağac, avtomobil, ev və digər yanar materiallardan kənarda yandırılmalı və tam sönənədək nəzarətdə saxlanılmalıdır. Tonqal üzərindən atılarkən ehtiyatsızlıq geyimin alışmasına, bədənin xəsarət almasına səbəb ola bilər. Yandırılan şamlar nəzarətsiz qalmamalıdır.

Qaydalara biganəlik həyatımıza təhlükədir. Təhlükə zamanı 112-yə zəng edin!" deyə müraciətdə əhalinin diqqətinə çatdırılıb.

**AZƏRTAC.**

## ELAN

«Qəbələ» qəzeti 8 aprel 2017-ci il tarixdə «Qəbələnin səsi» ədəbi məclisinin növbəti yığıncağını keçirəcəkdir.

Yığıncağa ədəbi yaradıcılıqla məşğul olan yerli yazarlar dəvət olunurlar.

Tədbir saat 10-da Qəbələ Mədəniyyət Mərkəzində başlanacaqdır.

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 9 saylı qərarına əsasən Corlu kənd sakini **Ağayev Rəmzi Eyyub oğluna** verilmiş JN seriyalı 310 nömrəli (kod 40613028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 25 fevral 2015-ci il tarixdə Nohurqışlaq kənd sakini **Məsimov Mürvət Eyvaz oğluna** verilmiş AA seriyalı 008244 nömrəli (reyestr nömrəsi 406013060372) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Taleə Əfəndiyevaya** qardaşı **QILMAN İSMAYILOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin kollektivi mərkəzin baş mühasibi **DİLŞAD TEYYUBOVANIN** vəfatı ilə əlaqədar qızı **Könül Şıxməmmədovaya və mərhumun ailə üzvlərinə** dərin hüznlə başsağlığı verir.

«QƏBƏLƏ» qəzetinə 2017-ci il üçün abunə yazılışı davam edir

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1700